# Vətənini canından əziz bilənlər...

***Vətənimizin qeyrətli, mətin oğulları 44 günlük haqq savaşımızda doğma Azərbaycanın ərazi bütövlüyü uğrunda alovlardan, odlardan keçərək şanlı tarix yazdılar.***

Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində dünyaya göz açan Vüsal Kamran oğlu Kazımov da müqəddəs, ulu torpağın bağrına zəfər bayrağımızı sancanlar arasında idi. O, son damla qanını qədər yağı düşmənlə döyüşərək şəhidlik zirvəsinə ucalmaqla parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrildi. "Öncə Vətəndir!", - deyib ağır müharibə meydanında Uca Tanrıdan qəlbinə hakim kəsilən ilahi sevgisini Vətənə bir daha sübut edəndə şəhid baş leytenant Vüsal Kazımov ömrünün 30 ilini təzə yola salmışdı. Bəli, ömrü qıs oldu Vüsalın. Qaldı ki, təkcə keçdiyi rəşadətli döyüş yolunun hər səhifəsi fədakarlıqla, mərdliklə, həmçinin örnək olası qürur və heyrətlə doludur.

Vüsal cismən aramızdan gedib. İndi onun səpdiyi qəhrəmanlıq toxumu minlərlə ürəklərdə cücərir. Vətənini canından əziz tutmaqla onu alınmaz qalaya çevirən igidin həm də millətə, xalqa əziz iki qız övladı- Nuray və Aynur əmanət qalıb. Layiq görüldüyü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin, Füzulinin azadlığı uğrunda medalları göstərir ki,




Vüsal Kazımov hər daşına, torpağına vurulduğu doğma Azərbaycana gərəkli bir oğul kimi yaşamağı bacardı.

İndi üçüncü ildir Vüsal müqəddəs şəhidlik zirvəsindən bizlərə sarı boylanır. Bir an belə unudulmur, təkcə ailə üzvlər, qohumları yox, bütün Azərbaycan onunla qürur duyur, sevilə-sevilə könüllərdə bəslənilir. Doğma kəndində adına park, bulaq kompleksi adamların and yerinə çevrilib. Onu həsr olunmuş "Vüsal hicrandan acymış" sənədli film isə Vətənə oğul sevgisindən danışır. Bu günlər isə, yəni Vüsalın 33 yaşının tamamında onun doğma kəndində uyduğu torpaq ziyarət edildi, ehtiram əlaməti olaraq məzarı üstünə gül dəstələri qoyuldu.

Çıxışlar zamana bildirildi ki, Vüsal Vətənini, torpağını çox sevirdi. Tezliklə Qarabağın azadlığını istəyirdi. Bu yolda şirin canını fəda etməyə hazır idi. Etdi də... Məhz onun ölümü həyat qədər dəyərli oldu. 44 günlük haqq savaşımızda qələbə sevincini bizə yaşadan hər şəhidimiz Vətən səmasının əbədi parlaq günəşinə çevrildi. Vüsal da belə...

Məlumat üçün deyək ki, Vüsal Kazımov Lənkəran Dövlət Universitetində ali təhsil aldıqdan sonra ordu sıralarına gedib, burada tağım komandiri vəzifəsində Vətənini keşiyini çəkib. Hərbi xidməti üzüağ başa vuran Vətən sevdalısı evinə qayıdıb. 2018-ci ildə Lənkəran şəhər Gənclər və İdman İdarəsində işləməklə Vüsal qısa müddət ərzində Lənkəran şəhər Uşaq, Gənclər və İdman Məktəbinə direktor təyin edilib. Bir qayda olaraq erməni dığaların işğalçılıq siyasətinə qarşı barışmaz mövqe tutan Vüsal İkinci Qarabağ müharibəsi başlanan günü könülü döyüşən cəbhəyə yollanıb, Vətən torpaqlarının azad olunması uğrunda ölüm-dirim savaşına qatılıb. Füzuli, Qubadlı, Cəbrayıl, Şuşa döyüşlərində böyük hünər göstərib. Neçə-neçə ağır vuruşların qalibi olan baş leytenant Daşaltı və Şuşa əməliyyatlarında gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gəlib əlçatmaz, ünyetməz göylərə ucalıb.

***Zəfər Orucoğlu, AJB üzvü***